# Regionda sabitlik, çeviklik və tərəfdaşlıq baxımından həlledici mövqe

## Qarabağ və Şərqi Zəngəzurda "qara qızıl" "yaşıllaşdırılır"

*Azərbaycan dünyada yeganə ölkədir ki, ağır müharibədən dərhal sonra işğaldan azad edilən ərazilərin minalardan, partlamamış döyüş sursatlarından təmizlənilməsinə başlayıb və düşmən tərəfindən vəhşiliklə dağıdılan ərazilərdə infrastruktur layihələrin icrasını həyata keçirir. Şanlı qələbə, inkişaf, tərəqqi, gələcək hədəflərə inamlı addımlar Azərbaycanın qüdrətinin, gücünün, uğurlu siyasətinin göstəricisidir. Qalib ölkənin ictimai-siyasi həyatında yeni, həm də çox vacib bir mərhələ başlayıb. 30 ildən sonra insanlar Böyük Qayıdışla öz doğma yurd yerlərinə təhlükəsiz şəkildə qayıdırlar, müasir və modern evlərdə yaşayırlar. Qarabağ və Şərqi Zəngəzurda çox inamlı addımlar atılır, nəhəng layihələr icra edilir, Ermənistanın etnik nifrət zəminində xarabalığa çevirdiyi şəhərlər, kəndlər yenidən tikilir, vaxtilə zülmətə qərq olmuş hər iki bölgədə indi işıqlar sayrışır, quruculuq əzmi dağların əzəmətinə bənzəyir. Döyüş meydanında qazanılan qələbə indi ucalan binalarda, rahat və geniş yollarda, zirvələrdən keçən işıq dirəklərində, dağların altında qazılan tunellərdə, üç hava limanında, yenidən arzulara, gülüşə bələnən evlərdə, insanların duyğularında əks olunur.*










Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji zonası" elan edilib, təbii ki, bu da qlobal çağırışlara və müasir inkişaf tendensiyalarına uyğun strateji yanaşmadır. Dövlətimizin başçısı İlham Əliyev çıxışlarında dəfələrlə bu ərazilərin bərpaolunan enerji mənbələrindən maksimum istifadə ediləcəyi, ekoloji təmiz, səmərəli innovativ texnologiyaların tətbiq olunacağı barədə deyib ki, azad edilmiş ərazilər "yaşıl enerji zonası" olacaq. Əminəm ki, Azərbaycan transformasiyanın nadir təcrübəsini nümayiş etdirərək, Lüksemburqun ərazisindən dörd dəfə böyük olan dağıdılmış ərazini yüksək yaşayış standartlarına malik firavanlıq məkanına çevirəcək. İlk belə nümunə Zəngilan rayonunun Ağalı kəndində yaradılıb, əhali günəş enerjisindən istifadə edir, "ağıllı kənd" yeni dövrün başlanğıcı hesab olunur. Hər iki bölgədə hidro, günəş, külək, biokütlə, geotermal və digər bərpaolunan enerji potensialı var, mövcud resurslardan istifadə etməklə külək və günəş enerji stansiyalarının və həmçinin su anbarlarında, kiçik çaylarda su elektrik stansiyalarının tikintisi davamlı şəkildə aparılır. Qarabağ və Şərqi Zəngəzurda demək olar ki, bütün elektrik enerjisi "yaşıl" mənbələrdən alınır. Qarabağda elektrik enerjisinin istehlakı 40 MVt-dan az olsa da, istehsal 100 MVt-dan artıqdır. Mütəxəssislər hesab edirlər ki, o bölgələrdə istehsal edilən elektrik enerjisi Qarabağa töhfə verməklə yanaşı, Bakıda "qara qızıl"ın işlənməsi üçün sərf olunan elektrik enerjisini "yaşıllaşdıracaq". Yəni Qarabağın "yaşıl enerji"si ilə Bakının "qara qızıl"ı birləşəcək. Bununla da dekarbonizasiya istiqamətində önəmli addımlardan biri həyata keçiriləcək. Bu hədəflər uğrunda sözün əsl mənasında mücadilə aparılır, Qarabağ və Şərqi Zəngəzur ölkənin "yaşıl enerji" mərkəzinə çevrilir. Enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, enerji təchizatının şaxələndirilməsi və "yaşıl enerji" üzrə davamlı inkişaf bu gün ölkəmizin əsas prioritetləri sırasındadır. Bu istiqamətdə görülən işlər qlobal enerji bazarında Azərbaycanın etibarlı və məsuliyyətli tərəfdaş mövqeyini daha da gücləndirir. Dünyanın səksən ölkəsindən şirkətlərin iştirak etdiyi "Bakı Enerji Həftəsi" beynəlxalq enerji əməkdaşlığında Azərbaycanın tutduğu yeri göstərir. Bu barədə Prezident İlham Əliyev "Bakı Enerji Həftəsi"nin iştirakçılarına müraciətində bildirib. İşğaldan azad olunmuş ərazilərin "yaşıl enerji" zonası kimi inkişafı dayanıqlı enerji strategiyasının əsas istiqamətidir. Uğurlu strateji yanaşmalar enerji sektorunda Azərbaycanın davamlı inkişafı üçün yeni imkanlar yaradır. Həyata keçirilən təşəbbüslər, həmçinin ətraf mühitin qorunmasına məsuliyyətli münasibətimizi və enerji sahəsində liderlik iddiamızı əks etdirir. Əminəm ki, "Bakı Enerji Həftəsi" öz zəngin ənənəsinə və innovasiyaya açıqlıq prinsipinə sadiq qalaraq beynəlxalq dialoqun dərinləşməsinə, yeni tərəfdaşlıqlar qurulmasına və faydalı əməkdaşlığın inkişafına mühüm töhfə verəcəkdir.

Qarabağ və Şərqi Zəngəzur nəinki özözünü "yaşıl enerji" ilə təmin edir, hətta ölkəmizin digər yerlərinə də ötürür. Bu rəqəmlərin dəfələrlə artırılması nəzərdə tutulur. Çünki ən optimist ssenarilərə görə regionun tələbatı 1000 meqavat ətrafında olacaq. Hazırkı istehsal sürəti isə bundan çoxdur. Yəni hər iki bölgə gələcəkdə də nəinki özünü, hətta ölkənin digər yerlərini də "yaşıl enerji" ilə təmin edəcək. Mütəxəssislər qeyd edirlər ki, enerji dörd dəyər zəncirinə ayrılır: istehsal, ötürmə, paylama və istehlak zəncirləri. Demək olar ki, birinci və ikinci dəyər zəncirlərində işlər tamamlanıb. Hazırda paylama və istehlak zəncirlərində işlər davam edir. Bunun səbəbi odur ki, Qarabağa və Şərqi Zəngəzura köç mütəmadidir. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" layihələrinin genişləndirilməsi çərçivəsində Cəbrayılda 240 meqavat gücündə günəş elektrik stansiyasının enerji sisteminə inteqrasiyası üçün yarımstansiya tikilir. "Nobel Energy" şirkəti tərəfindən 100 MVt gücündə günəş elektrik stansiyasının tikintisi də aparılır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 500 MVt-a yaxın hidroenerji və 300-400 MVt gücündə günəş enerjisi layihələrinin həyata keçirilməsi nəzərdə tutulub. "Xudafərin" və "Qız Qalası" Su Elektrik stansiyaları da daxil olmaqla bölgənin ümumi "yaşıl enerji" potensialı 1 000 MVt-dan artıq qiymətləndirilir. Bu isə 2040-cı ilə qədər regionun enerji tələbatını tam şəkildə bərpaolunan enerji mənbələri hesabına ödənməsinə imkan yaradacaq.

Bundan başqa, hər iki bölgədə altı yeni hidroelektrik stansiyanın tikintisi nəzərdə tutulub. Onlardan biri Sərsəng su anbarı üzərində yerləşən hidroelektrik stansiyadır. Nominal gücü 50 MVt olan stansiya hazırda 5-6 MVt rejimində fəaliyyət göstərir. Digər stansiyalar isə əsasən Muxtarçay və Oxçuçay kimi dağ çayları üzərində inşa edilir. Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji"yə keçid istiqamətində aparılan işlər bir sıra dünya ölkələri üçün nümunə ola bilər. Bunu energetika nazirinin müavini Elnur Soltanov "Enerji təminatı məsələləri üzrə işçi qrupu"nun iclasında bildirib. Nazir müavini qeyd edib ki, Qarabağda həyata keçirilən layihə və fəaliyyətlər təkcə regional deyil, ümummilli miqyasda da diqqət çəkir: "Dünyanın bir çox ölkəsində bu qədər strateji və mənəvi məsuliyyət daşıyan coğrafi bölgə tapmaq çətindir. Dünyada belə bir öhdəlik daşıyan bölgəyə sahib olan az ölkə var. Azərbaycan bu coğrafiyada həm tarixi ədaləti bərpa edir, həm də gələcəyə yönəlik müasir yanaşmalar tətbiq edir. COVID-19 dövründə belə ölkəmiz turizm və digər sahələr üzrə yeni modellər nümayiş etdirdi və bu təcrübə indi Qarabağda tətbiq olunur. Bu torpaqlarda yaşanan duyğuları ifadə etmək asan deyil. Lakin əminəm ki, biz bu hissləri gördüyümüz işlə, həyata keçirdiyimiz fəaliyyətlə, göstərdiyimiz keyfiyyətlə yaşada bilərik. Emosiyalar təbiidir, duyğularımız ola bilər, amma dövlət məmuru olaraq əsas vəzifəmiz bu hissləri əməli fəaliyyətə çevirməkdir".

Qarabağda ekoloji terror və Ermənistanın vandalizm aktlarının saysız-hesabsız nümunələri mövcuddur. Lakin azad edilmiş ərazilərdə qısa zamanda aparılan bərpa və abadlıq Azərbaycanın "yaşıl siyasət"ini bir daha bütün dünyaya sübut etdi. "Ağıllı kəndlər", ekologiya nəzərə alınaraq salınan şəhərlər, bərpaolunan və alternativ enerji sahələrinin qurulması əsas hədəflərdəndir.

Bu gün Qarabağ Cənubi Qafqaz regionunun "yaşıl paytaxtı"na çevrilir. Qalib Azərbaycanın siyasi, iqtisadi və hərbi imkanları gündən-günə daha da genişlənir, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmlənir və bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Bu, böyük qürur yaradır, xüsusilə keçmiş məcburi köçkünlərdə. Əzəli və doğma yurd yerlərinə qayıdan keçmiş məcburi köçkünlərin fikirləri yekdildir, səmimi sözləri ürəklərdən süzülüb gəlir: biz yaradılan şəraitə görə dövlətimizin başçısı, möhtərəm İlham Əliyevə minnətdarlığımızı bildiririk, şəhidlərin ruhu qarşısında baş əyirik, qazilərimizə cansağlığı arzu edirik. Otuz il bundan əvvəl bu yerlərdə itirdiyimiz rahatlığımıza, xoşbəxtliyimizə, arzularımıza yenidən qovuşmuşuq. Dünyada bundan artıq xoşbəxtlik ola bilməz, ömrümüzün qalan hissəsini öz yurdumuzda keçirdiyimiz üçün çox qürurluyuq.

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika .- 2025.- 25 iyun (№ 129).- S.13.